Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun İdarə Heyətinin ___________ tarixli, ______№-li qərarı ilə təsdiq edilmişdir.

**Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu publik hüquqi şəxsin**
**Xidmətlərin təşkili departamentinin**

# Ə S A S N A M Ə S İ

## 1. Ümumi müddəalar

**1.1.** Bu Əsasnamə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 16 may tarixli, 220 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu publik hüquqi şəxsin Nizamnaməsi"nə uyğun olaraq hazırlanmışdır və Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu publik hüquqi şəxsin (bundan sonra – İnstitut) Xidmətlərin təşkili departamentinin (bundan sonra – Departament) əsas fəaliyyət istiqamətlərini, vəzifələrini, hüquqlarını, fəaliyyətinin təşkili qaydalarını müəyyən edir;

**1.2.** Departament öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"ni, "Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu publik hüquqi şəxsin Nizamnaməsi"ni, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarını, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) Kollegiyasının qərarlarını, Agentliyin sədrinin əmr və sərəncamlarını, Agentliyin sədr müavinlərinin və Aparat rəhbərinin göstərişlərini, İnstitutun İdarə Heyətinin sədrinin əmrlərini və sərəncamlarını, İdarə Heyətinin qərarlarını, İdarə Heyətinin sədr müavinlərinin göstərişlərini və bu Əsasnaməni rəhbər tutur;

**1.3.** Departament öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən İnstitutun digər struktur bölmələri, mərkəzi və yerli icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları, beynəlxalq təşkilatlar və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## 2. Departamentin fəaliyyət istiqamətləri

**2.1.** Departament aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:

**2.1.1.** qida təhlükəsizliyi sahəsi üzrə Dövlət proqramlarının və inkişaf konsepsiyalarının həyata keçirilməsində iştirak edir;

**2.1.2.** sahibkarlarla əməkdaşlıq, sahibkarlara xidmət sahəsində tədbirlər işləyib hazırlayır və həyata keçirir;

**2.1.3.** qida təhlükəsizliyinə dair yerli və beynəlxalq standartların qida zəncirinin bütün mərhələsində fəaliyyət göstərən sahibkarlar tərəfindən tətbiq edilməsinə dair tövsiyələr verir, bununla bağlı tələb olunan sənədlərin hazırlanmasına dair köməklik göstərir;

**2.1.4.** qida zəncirinin bütün mərhələsində fəaliyyət göstərən sahibkarların mallarının (xidmətlərin, işin), fəaliyyət prosesinin, idarəetmə sisteminin və işçi heyətinin müvafiq standartlara, texniki reqlamentə və digər texniki normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə uyğunluğunu qiymətləndirir və məsləhətlər verir;

**2.1.5.** təlim və inkişaf ehtiyaclarını müəyyən edir, təlim proqramlarının, materiallarının hazırlanmasını və tətbiqini təmin edir;

**2.1.6.** qida təhlükəsizliyi sahəsində mütəxəssislərin hazırlanması məqsədilə təlim və tədrisi təşkil edir;

**2.1.7.** qida sahəsində fəaliyyət göstərən sahibkarlar üçün tikinti və yenidənqurma layihələrinin hazırlanması ilə bağlı məsləhətlər verir;

**2.1.8.** qida təhlükəsizliyi sahəsində biznes layihələrinin hazırlanması və tətbiq edilməsi, layihələrin icrası ilə bağlı zəruri hallarda kənar müəssisə və təşkilatların cəlb edilməsi (autsorsinq), onlarla birgə koordinasiyalı şəkildə işlərin görülməsi üzrə məsləhətlər verir;

**2.1.9.** qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## 3. Departamentin vəzifələri

**3.1.** Departamentin bu Əsasnamə ilə müəyyən olunmuş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri vardır:

**3.1.1.** qida sahəsində fəaliyyət göstərən fiziki və hüquqi şəxslər tərəfindən daxil olan müraciətlərə əsasən müəssisələrə qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğunluğuna dair qiymətləndirmə və konsaltinq xidmətlərini göstərmək, memarlıq və layihələndirmə işlərini hazırlamaq, biznes layihələrini ilkin dəyərləndirmək və ekspertiza etmək;

**3.1.2.** sahibkarlıq subyektlərinə qida təhlükəsizliyi sahəsində qanunvericilik tələblərinin yerinə yetirilməsi ilə bağlı dəstək göstərmək, beynəlxalq standartların tətbiqi üzrə məsləhətlər vermək, tələb olunan sənədlərin hazırlanmasında iştirak etmək, ödənişli və ya ödənişsiz təlimlər təşkil etmək, xüsusi proqramların həyata keçirilməsində iştirak etmək;

**3.1.3.** səlahiyyətləri daxilində qida sahəsində fəaliyyət göstərən yerli və xarici sahibkarlıq subyektləri ilə əməkdaşlıq əlaqələri qurmaq, sahibkarlara göstərilən xidmətlərin digər müəssisə və təşkilatlarla birgə və koordinasiyalı formada (podratçı təşkilatlarla birgə) təşkil edilməsini təmin etmək;

**3.1.4.** fəaliyyət istiqamətinə uyğun olaraq göstərilən xidmətlərə dair sahibkarlarla xidmət müqavilələrinin imzalanmasını həyata keçirmək, onların icra olunmasına nəzarət etmək və nəticəsi barədə mütəmadi olaraq rəhbərliyə məlumat vermək və müqavilələr üzrə vahid məlumat bazasının qurulmasında iştirak etmək;

**3.1.5.** sahibkarlarla əməkdaşlıq, sahibkarlara xidmət sahəsində tədbirlərin və bununla bağlı xidmətlərin elektron məlumat bazasının hazırlanması və həyata keçirilməsini təmin etmək;

**3.1.6.** qida təhlükəsizliyi sahəsində fəaliyyət göstərən yerli və xarici sahibkarlıq subyektləri ilə dövri olaraq görüşlərin təşkili və keçirilməsini təmin etmək;

**3.1.7.** sahibkarlıq subyektlərinə qida təhlükəsizliyi üzrə idarəetmə sistemlərinin (HACCP və digər beynəlxalq standartların) və qabaqcıl fəaliyyət kodekslərinin (GAP, GHP, GMP və s.) tətbiqi ilə bağlı konsultasiya, qiymətləndirmə və təlim tədbirlərinin həyata keçirilməsində iştirak etmək;

**3.1.8.** təlim proqramını hazırlamaq, təlim ehtiyaclarını müəyyənləşdirmək və keçirilən təlimlərin protokollarının qeydə alınmasını təmin etmək;

**3.1.9.** təlim materiallarının hazırlanması, təlimçilər bazasının formalaşdırılması və daim yenilənməsini təmin etmək;

**3.1.10.** İnstitutun təlim və inkişaf strategiyasının hazırlanmasında iştirak etmək;

**3.1.11.** müştəri məmnunluğunun qiymətləndirilməsi məqsədilə sorğular təşkil etmək;

**3.1.12.** fəaliyyət istiqamətinə uyğun olaraq sahibkarlara göstərilən xidmət çeşidlərinin kataloqunu hazırlamaq, sahibkarlar arasında xidmət təkliflərini tətbiq etmək;

**3.1.13.** qida sahəsində fəaliyyət göstərən müəssisələrin texnoloji axın ardıcıllığı prinsiplərinə uyğun əsas və yardımçı sahələrinin bölgüsü ilə bağlı işin təşkil olunması üzrə məsləhətlər vermək;

**3.1.14.** daxil olan müraciətlərə əsasən sahibkarlıq subyektləri üçün müəssisədaxili texnoloji reqlamentlər və eskiz layihələrini hazırlamaq;

**3.1.15.** Agentlik və İnstitutdan daxil olan sifarişlərə əsasən daxili layihələrin yerinə yetirilməsi;

**3.1.16.** qrafik materialların tərtibatı və 3D vizualizasiya işlərinin hazırlanması;

**3.1.17.** qida təhlükəsizliyi sahəsində yeni və innovativ biznes layihələri barədə rəhbərliyə təkliflər vermək, həmin layihələr üzrə görülməli iş planları hazırlamaq, tətbiq etmək və icrasına nəzarət etmək;

**3.1.18.** qida təhlükəsizliyi sahəsində biznes layihələrinin hazırlanması və tətbiq edilməsi, layihələrin icrası ilə bağlı zəruri hallarda kənar müəssisə və təşkilatların cəlb edilməsi (autsorsinq), onlarla birgə koordiansiyalı şəkildə işlərin görülməsini təmin etmək;

**3.1.19.** Agentliyin və İnstitutun rəhbərliyi tərəfindən tapşırılan layihələri həyata keçirmək və nəticələri barədə mütəmadi olaraq rəhbərliyə məlumatlar təqdim etmək;

**3.1.20.** biznes layihələrin yerinə yetirilməsi müddətinin və resurslarının effektiv və səmərəli istifadə edilməsinə nəzarət etmək;

**3.1.21.** biznes layihələrə uyğun rəylər və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq;

**3.1.22.** əlverişli və sağlam biznes mühitinin formalaşdırılması üçün sahibkarlıq subyektlərinə təkliflər vermək;

**3.1.23.** əsas fəaliyyət istiqaməti üzrə görülən işlərlə bağlı dövri hesabatlar hazırlamaq;

**3.1.24.** hesabatların, arayışların və tələb olunan məlumatların təqdim edilməsi üçün məlumatların qorunub saxlanılmasını təmin etmək;

**3.1.25.** Departamentin fəaliyyətinin təkmilləşdirilməsi və göstərdiyi xidmətlərin optimallaşdırılması məqsədi ilə təhlillər aparmaq və uyğun yazılı təkliflər vermək;

**3.1.26.** Departamentə daxil olan müraciət, ərizə, şikayət, sorğu, təkliflərə və digər sənədlərə baxmaq və müəyyən edilmiş qaydada, qanunvericiliyə uyğun olaraq vaxtında tədbirlər görmək;

**3.1.27.** Departamentin faəliyyət istiqamətləri üzrə iş planını hazırlamaq və rəhbərliyə bu barədə təkliflər vermək;

**3.1.28.** fəaliyyət istiqamətləri üzrə yerli və beynəlxalq təcrübəni öyrənmək və uyğun təcrübənin tətbiqi ilə bağlı yazılı təkliflər vermək;

**3.1.29.** Departamentin əməkdaşları tərəfindən fəaliyyət prosesində qanunvericiliyə uyğun olaraq xidməti məlumatların, dövlət və kommersiya sirrinin qorunmasını təmin etmək;

**3.1.30.** qanunvericiliyin tələblərinin pozulması halları aşkar edildikdə, bu hallar barədə aidiyyəti qurumlara məlumat vermək və zərurət yarandığı halda araşdırma prosesində iştirak etmək;

**3.1.31.** rəhbərlik tərəfindən departamentə tapşırılmış işləri yerinə yetirmək;

**3.1.32.** fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək;

## 4. Departamentin hüquqları

**4.1.** Departament öz vəzifələrini yerinə yetirərkən aşağıdakı hüquqlara malikdir:

**4.1.1.** qida təhlükəsizliyi sahəsinin inkişafı üzrə prioritetlərin müəyyən edilməsi, dövlət proqramları və inkişaf konsepsiyalarının hazırlanması və həyata keçirilməsində iştirak etmək;

**4.1.2.** aidiyyəti dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə, İnstitutun struktur bölmələrinə və tabeliyindəki qurumlara məlumatlar (sənədlər) barədə sorğular ünvanlamaq və onlardan müvafiq məlumatları (sənədləri) almaq;

**4.1.3.** müstəqil ekspertlərin və mütəxəssislərin, məsləhətçi şirkətlərin, elmi təşkilatların müəyyən edilmiş qaydada İnstitutun fəaliyyətinə cəlb edilməsi ilə bağlı təkliflər hazırlamaq;

**4.1.4.** İnstitutun məlumat bazalarına çıxış əldə etmək və onlardan istifadə etmək;

**4.1.5.** fəaliyyət istiqamətləri üzrə normativ hüquqi aktların, təşkilati-sərəncamverici sənədlərin layihələrinin hazırlanmasında iştirak etmək;

**4.1.6.** Departamentin əməkdaşlarının peşə hazırlığının və ixtisasının artırılması üçün təkliflər vermək;

**4.1.7.** İnstitutun struktur bölmələri və onun tabeliyində olan qurumlarda, habelə dövlət qurumlarında yaradılmış komissiyaların və işçi qrupların işində, fəaliyyətinə aid məsələlər üzrə keçirilən müxtəlif səviyyəli yerli və beynəlxalq tədbirlərdə iştirak etmək;

**4.1.8.** fəaliyyət istiqamətlərinə uyğun olaraq xarici dövlətlərin təcrübəsini öyrənmək, qida təhlükəsizliyi üzrə fəaliyyətin təkmilləşdirilməsi istiqamətində tədbirlər görmək və təkliflər hazırlamaq;

**4.1.9.** fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## 5. Departamentin fəaliyyətinin təşkili

**5.1.** Departamentin fəaliyyətinə İdarə Heyətinin sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şəxs (bundan sonra ismin müvafiq hallarında – Departament müdiri) rəhbərlik edir. Departament müdiri departamentə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

**5.2.** Departament müdirinin İdarə Heyətinin sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavini vardır. Departament müdirinin müavini departament müdiri tərəfindən ona həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır. Departament müdiri olmadıqda onun səlahiyyətlərini müəyyən edilmiş qaydada departament müdirinin müavini və ya İdarə Heyətinin sədri tərəfindən təyin olunmuş digər şəxs həyata keçirir.

**5.3.** Departamentin digər əməkdaşları İdarə Heyətinin sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

**5.4.** Departament müdiri:

**5.4.1.** Departamentin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

**5.4.2.** tabeliyində olan şöbələr və əməkdaşlar arasında iş bölgüsü aparır, onların fəaliyyətini əlaqələndirir, əmək və icra intizamına riayət etmələrinə nəzarət edir;

**5.4.3.** Departamentə həvalə olunmuş vəzifələrin icrasını təmin etmək məqsədilə tərtib edilmiş iş planlarını və digər müvafiq sənədləri imzalayır, habelə iş planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsinə nəzarət edir;

**5.4.4.** Departamentin əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi üçün İnstitutun rəhbərliyinə təqdimatlar verir;

**5.4.5.** Departamentin vəzifələrini yerinə yetirmək üçün İnstitutun digər struktur bölmələrindən məlumat və sənədləri alır;

**5.4.6.** Departamenti təmsil edir.

**5.5.** Departament 4 şöbədən ibarətdir:

**5.5.1.** Xidmətlərin təşkili şöbəsi;

**5.5.2.** Təlim mərkəzi şöbəsi;

**5.5.3.** Memarlıq və layihələndirmə şöbəsi;

**5.5.4.** Qida subyektlərinin qiymətləndirilməsi şöbəsi.

**5.6.** Departamentin əməkdaşları bu Əsasnamənin tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən məsuliyyət daşıyırlar.